# Pandemiya dövründə polislərimiz əsl fədakarlıq göstərirlər

***Son aylar ərzində dünyada geniş yayılmış koronavirus pandemiyası ilə mübarizə Azərbaycanda yüksək səviyyədə təşkil olunub. Bu istiqamətdə işlər lap əvvəlcədən düzgün istiqamətdə aparıldı. Ona görə də atılmış addımlar, görülmüş qabaqlayıcı tədbirlər həm Azərbaycan xalqı, həm də beynəlxalq təşkilatlar, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirildi.***



Ciddi tədbirlərin görülməsi ölkəni böyük bəladan xilas etdi. Qabaqlayıcı, məhdudlaşdırıcı tədbirlər pandemiyanın geniş vüsət almasının qarşısını almağa imkan verdi. Nəticədə Azərbaycanda koronavirusdan vəfat edənlərin sayı bir çox inkişaf etmiş ölkələrlə müqayisədə kifayət qədər az oldu.

Eyni zamanda, Ümumdünya Səhiyyə Təşkilatı bu sahədə gördüyü işlərə görə Azərbaycanı nümunəvi ölkə adlandırdı. Bununla bağlı Prezident İlham Əliyev demişdir: "Bu, bizim gördüyümüz işlərə verilən böyük qiymətdir. Mən bilmirəm başqa bir ölkəyə belə bir ad verilib, yoxsa yox. Bu, doğrudan da, görülmüş işlərin məntiqi nəticəsidir. Çünki bəri başdan bizim əsas məqsədimiz xalqımızı, vətəndaşlarımızı bu xəstəlikdən qorumaq idi. Bütün digər iqtisadi məsələlər, iqtisadiyyatın tənəzzülə uğraması, iqtisadiyyatda yarana biləcək problemlər arxa plana keçdi. Halbuki biz bu məsələlərlə də ciddi məşğul olmuşuq. Amma birinci məsələ insanların sağlamlığı, ikinci məsələ insanların sosial təminatı idi ki, biz hər ikisini də təşkil etdik".

Görülmüş tədbirlər birinci növbədə səhiyyə sisteminin və Daxili İşlər Nazirliyinin virusla mübarizəyə operativ şəkildə səfərbər edilməsində özünü büruzə verdi. Qısa müddət ərzində səhiyyəmiz, demək olar ki, yenidən quruldu. Bu məsələdə İcbari Tibbi Sığorta Agentliyi və TƏBİB xüsusi rol oynadı. Bu, sonradan Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirildi. Əlbəttə, belə çətin şəraitdə heç bir ölkənin səhiyyə sistemi pandemiya ilə mübarizəyə hazır deyildi. Qısa vaxtda böyük təşkilati işləri görüb başa çatdırmaq böyük nailiyyət hesab olunmalıdır. Prezident bu barədə demişdir: "Xəstəxanaları müəyyən etmək, logistika işlərini təmin etmək, xəstələri regionlar üzrə bölmək, karantin rejimində saxlanılanların təminatını təşkil etmək, onlar üçün bütün bu təşkilati-logistik məsələləri həll etmək, xaricdən vətəndaşları təxliyə etmək – biz bütün bunları operativ qərargah çərçivəsində, o cümlədən, həkimlərin və TƏBİB-in fəal iştirakı ilə təmin edə bilmişik. Ona görə biz artıq aprelin sonunda gördük ki, üç həftə ərzində dinamika müsbətdir, yoluxanların sayı sağalanların sayından azdır və biz yumşalma tədbirlərinə keçdik. Əfsuslar olsun ki, yumşalma tədbirləri yoluxanların sayına mənfi təsir göstərmişdir. Ancaq bu gün vəziyyət tam nəzarətdədir və bütün ölkələr artıq açılır. Hətta pandemiyanın geniş vüsət aldığı ölkələr də açılır və biz də yavaş-yavaş açılırıq. Amma vəziyyəti tam nəzarətdə saxlayırıq".

Hazırda Azərbaycanda 20-dən çox xəstəxana sırf koronavirusla bağlı fəaliyyət göstərir. Modul tipli 10 xəstəxananın inşası isə davam etdirilir, onlardan birinin açılışı olub. Bunların istifadəyə verilməsi əlavə 2000 yataq yeri deməkdir. Bütün tibbi avadanlıq təmin edilib, süni tənəffüs aparatları gətirilib.

Pandemiyanın ilk günlərindən karantin rejiminə əməl olunmasını nəzarətdə saxlamaq Daxili İşlər Nazirliyinə həvalə olundu. Bu da, əlbəttə, asan məsələ deyil. Əgər səhiyyə sistemimiz bütün səyləri insanların sağlamlığının bərpasına yönəldibsə, Azərbaycan polisi insanların təcrid olunması, onların karantin rejiminə lazımınca əməl etməsi prosesinə cavabdehlik daşıyır. Səhiyyə sistemimiz artıq xəstəliyə yoluxmuş vətəndaşlarımızın müalicəsi ilə məşğul olursa, şəhərlərimizin, o cümlədən, Bakının, Sumqayıtın, Gəncənin, digər yaşayış məntəqələrinin küçələrində gördüyümüz polis əməkdaşları bizi məhz virusa yoluxmaqdan qorumağa çalışır. Onlar qoruyucu tibbi maskalardan istifadə etməyimizə, bir-birimizlə sosial məsafəni qoruyub saxlamağımıza, küçəyə çıxmaq üçün icazəmizin olub-olmamasına, ölkədə asayişin təmin edilməsinə nəzarət edirlər.

Son iki gündə – iyunun 6-7-də isə, bir sıra ərazilərdə, eləcə də Bakıda karantin rejimi sərtləşdirildi, küçələrə çıxış dayandırıldı, hətta marketlər, apteklər belə işləmədi. Bütün bu məhdudlaşdırıcı tədbirlərə də, təbii ki, polis əməkdaşları nəzarət etməli idi və etdi. Özü də kifayət qədər nizam-intizam, qanunun tələbləri gözlənildi. Bununla yanaşı, Azərbaycan polisi özünün humanizmindən də qalmadı. Bəzi hallarda ciddi ehtiyac duyanlara kömək əli uzadıldı. Bu ağır günlərdə Azərbaycan xalqının bir hissəsi olan polis işçiləri öz vəzifələrinin öhdəsindən layiqincə gəldilər. Bununla yanaşı, şübhəsiz ki, karantin rejimini pozduğuna görə cərimələnənlər də oldu. Amma bu, polisdən narazılıq yaranmasına səbəb ola bilərmi? Əlbəttə, yox. Axı son məqsəd heç də kimisə cərimələmək deyil, insanlarımızın sağlamlığını qorumaq idi. Kimsə nə vaxtsa eşitdimi ki, polis əməkdaşı rejim qaydalarına əməl edən bir kimsəyə qarşı başqa cür davranıb? Təbii ki, yox.

Gəlin bir anlıq etiraf edək ki, Nazirlər Kabinetinin müvafiq qərarının icrasına nəzarət etməli olan polis əməkdaşlarımız öz işlərinə məsuliyyətsiz yanaşsaydılar, Azərbaycanda yoluxanların sayı Çinin Uhan şəhərini keçərdi. Əlbəttə, biz vətəndaşlar gecə-gündüz, istidə-soyuqda şəhərlərimizin küçələrində, avtobuslarda, metro stansiyalarında çalışan polislərin əməyinə düzgün qiymət verməliyik. Biz onların zəhmətini itirə bilmərik. Birmənalı olaraq deməliyik ki, pandemiyanın ilk günlərindən polislərimiz də həkimlərimiz qədər fədakarlıq göstəriblər. Onların bu xidmətinə kölgə salmağa haqqımız yoxdur.

Nəhayət, məhz iyunun 6 və 7-də Bakıda baş vermiş mühüm bir fakt. Polis əməkdaşı xəsarət alan azyaşlıya yardım edib. Hadisə Binəqədi rayonu ərazisində baş verib. Qəsəbədə yaşayan azyaşlı evdə ehtiyatsızlıqdan yıxılıb və qolu sınıb. Uşağın valideyni ərazidə xidmətdə olan yol polisi əməkdaşlarına müraciət edərək onlardan yardım istəyib. Xidmətdə olan yol polisi əməkdaşları icazə əsasında xidməti ərazini tərk edərək azyaşlı və onun valideynini xəstəxanaya çatdırıblar. Uşağa xəstəxanada ilkin tibbi yardım göstərilib. Sonra xəstə və valideyni polisin köməyi ilə evlərinə qaytarılıblar. Uşağın valideyni yol polislərinə minnətdarlıq edib.

Keçən həftənin istirahət günlərində polisin bu cür fəaliyyəti ilə bağlı onlarca fakt göstərmək olar. Bu barədə sosial şəbəkələrdə nə qədər paylayım edilib. Polis binadan Azərbaycan Himninin sədalarını eşidərək maşından enir və fərağat dayanır, polis öz çörəyini qoca qarıya verir, aptekdən dərman alaraq vətəndaşa çatdırır. Ona görə də Azərbaycan polisinin olduqca geniş və gərəkli xidmətinə kölgə salmağa heç kəsin haqqı yoxdur. Necə deyərlər, "mənim polisim məni qoruyur!" Bu, həmişə belə olub və belə də olacaq!

**Paşa ƏMİRCANOV,**
**"Xalq qəzeti"**

Xalq qəzeti 2020.- 9 iyun.- S.3.